## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi

**Yerli və xarici təcrübənin göstərdiyi kimi, bazar iqtisadiyyatı şəraitində özəl sektor iqtisadiyyatda dinamik artımı şərtləndirən əsas amillərdən biridir. Azərbaycanda azad sahibkarlığın inkişafına yaradılan şərait fonunda özəl sektorun həm məşğulluğun təminatında, həm də iqtisadi artımda rolu böyüyür.**

# Sahibkarlara dövlət dəstəyi Azərbaycanı iqtisadi müstəvidə daha güclü ölkəyə çevirir



Bu istiqamətdə mövcud tendensiyanın davamlı xarakter alması dövlətin xüsusi diqqət mərkəzindədir.

**Özəl sektor iqtisadi artıma daha böyük töhfələr verir**

Qeyd edək ki, koronavirus pandemiyasından sonra iqtisadi müstəvidə fəallığın bərpa edilməsi, xüsusən də özəl sektorda iqtisadi canlanma, dünya dövlətlərinin böyük əksəriyyətində olduğu kimi, Azərbaycan üçün də prioritetdir. Proseslər ölkəmizdə iqtisadi müstəvidə fəallıq dərəcəsinin artdığını nümayiş etdirir. Elə bundan irəli gəlir ki, iqtisadiyyatda ciddi artım qeydə alınır. Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə Prezident İlham Əliyev qeyd edilən xüsusda maraqlı məqamlara toxunub: "Bu gün Azərbaycan iqtisadiyyatı pandemiya böhranından sonra dirçəlir. Artıq mənə verilən məlumata görə, doqquz ayın rəqəmləri müsbətdir, iqtisadiyyat təxminən 5 faiz artıb, sənaye də artıb, qeyri-neft sənayesi isə təxminən 20 faiz artıb".

Bu iqtisadi artımda məhz özəl sektorun xüsusi çəkiyə malik olması ekspertlər tərəfindən yüksək qiymətləndirilir. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin yaydığı məlumatlar da bu gün özəl sektorun iqtisadi inkişafda mühüm rol oynadığını göstərir. Xüsusən də məşğulluq sahəsinə sahibkarlar, özəl sektor daha böyük töhfələr verir. Məsələ burasındadır ki, ölkənin əmək bazarında muzdlu işçilərin və bağlanmış əmək müqavilələrinin sayında, həmçinin əməkhaqqı fondunda bu il artım qeydə alınıb. Bu artımın böyük hissəsi özəl sektorun payına düşüb. 2021-ci il oktyabrın 1-nə qeyri-neft sektorunun qeyri-dövlət bölməsində bağlanmış əmək müqavilələrinin sayı təxminən 750 min təşkil edib ki, bu da əmək münasibətlərinin şəffaflaşdırılması istiqamətində islahatların başlandığı 2019-cu ilin əvvəli ilə müqayisədə 210 min müqavilə çoxdur.

Onu da qeyd edək ki, 2021-ci ilin yanvar-sentyabr aylarında ölkədə 62 milyard 877,4 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,8 faiz çox ümumi daxili məhsul istehsal olunub. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 1,4 faiz, qeyri-neft-qaz sektorunda isə 6,2 faiz artıb. ÜDM istehsalının 40,1 faizi sənaye, 10,3 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 6,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 5,2 faizi tikinti, 1,8 faizi informasiya və rabitə, 1,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 18,4 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 9,1 faizini təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 6279 manata bərabər olub. Bu statistik rəqəmlərin təhlili göstərir ki, iqtisadiyyatda artımda qeyri-neft sektoru yüksək artım dinamikasına malikdir. Bu dinamika da məhz özıl sektor təmsilçilərinin hesabına əldə edilir.

**İqtisadi diversifikasiyanın daha da dərinləşdirilməsi sahibkarların inkişafda xüsusi rolunu artıracaq**

Bu gün Azərbaycan üçün diqqət mərkəzində yer alan əsas məqamlardan biri istehsal və ixracın şaxələndirilməsinin daha böyük sürətlə həyata keçməsidir. Çünki iqtisadi diversifikasiyanın daha da dərinləşdirilməsi Azərbaycanda daha geniş inkişafa səbəb ola bilər. Ekspertlər bildirir ki, diversifikasiya Azərbaycana daha əhatəli böyümə modelinə keçid imkanı verir. Bu diversifikasiya tələbinə müvafiq olaraq, hökumət qeyri-neft sektorunun rəqabət qabiliyyətini gücləndirmək üçün ambisiyalı islahatlara start verib və bu proses dvam edir.

Təbii ki, belə şəraitdə Azərbaycanda sahibkarların sayının daha da artması, onların iqtisadi böyümədə xüsusi çəkisinin daha da yüksəlməsi proqnozlaşdırılır. Azərbaycan biznes mühitində islahatların aparılması, iqtisadiyyatın əsas sektorlarında, o cümlədən kənd təsərrüfatı, turizm, maliyyə xidmətləri və digərlərində sahibkarlara xüsusi yer verilməsi də qeyd edilənlərin real təsdiqi hesab oluna bilər. Fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olmağı motivasiyanı təmin edən institusional və tənzimləyici addımlar isə indi Azərbaycanda sahibkarların sayının sürətlə artmasını şərtləndirir. Bununla bağlı qanunvericilik səviyyəsində də mühüm addımlar atılır. Elə bu günlərdə prezident İlham Əliyevin müvafiq fərmanı ilə İqtisadiyyat Nazirliyinin tabeliyindəki Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsin və "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin birləşmə formasında yenidən təşkili yolu ilə İqtisadiyyat Nazirliyinin tabeliyində "Azərbaycan Biznesinin İnkişafı Fondu" publik hüquqi şəxs yaradılması da buna xidmət edir. Burada əsas məqsəd iqtisadiyyatın qeyri-neft sektoruna investisiya qoyuluşunun təşviqi, sahibkarlığın inkişafına dövlət dəstəyi sahəsində idarəetmə sisteminin optimallaşdırılması və səmərəliliyinin yüksəldilməsi, əlaqələndirmənin gücləndirilməsi, bu sahədə şəffaflığın və sahibkar məmnunluğunun daha da artırılmasıdır. Təbii ki, bu hal dövlət tərəfindən özəl sektora, sahibkarlara verilən növbəti yüksək dəstəkdir. Bunlar nəticə etibarı ilə Azərbaycanda iqtisadi inkişafı daha çevik hala gətirir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi